

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 20 (22.931)

*31 yanvar 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Qusarda “Şahdağ” qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub.

Prezident İlham Əliyevə “Şahdağ” qış-yay turizm kompleksinin hazırkı vəziyyəti və burada bu il ikinci mərhələdə görüləcək işlər barədə məlumat verilib. Qeyd edilib ki, burada dəniz səviyyəsindən 2350 metr yüksəklikdə 5 nömrəli lift meydançası inşa ediləcək və 4,2 kilometr uzunluğunda yeni eniş zolağı tikiləcək. Bu, ən uzun zolaq olmaqla yanaşı, mürəkkəbliyinə görə də qırmızı dərəcəli zolaq olacaq.

Həmçinin dövlətimizin başçısına məlumat verilib ki, bu il kompleksin əsas meydanında əyləncə infrastrukturunun qurulması da planlaşdırılır. Burada “Boulinq”, tennis və digər stolüstü oyunlar zalı, kinoteatr, musiqi mərkəzi, həmçinin suvenir mağazaları, iaşə və xidmət obyektləri inşa ediləcək. Kompleksin yay mövsümündə də xidmət göstərməsi üçün burada göl yaradılacaq.

Dövlətimizin başçısına kompleksin yol infrastrukturu barədə də ətraflı məlumat verilib.

Kompleksin əsas meydanının ərazisi ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verib.



## Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının təsis olunmasının 25 illiyi qeyd edilib



***Babək Rayon Mədəniyyət Evində keçirilən tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov açıb.***

Təşkilat sədri bildirib ki, dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası çox mürəkkəb tarixi şəraitdə yaradılıb. 1992-1993-cü illərdə partiyanın yerlərdə rayon təşkilatı və özəklərinin yaradılması prosesi gedib. Partiyanın Babək Rayon Təşkilatı isə 1993-cü il yanvar ayının 30-dan fəaliyyətə başlayıb.

Bildirilib ki, yaradılmasının 25 illik yubileyini qeyd edən Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının təsis konfransı dahi rəhbərimiz Heydər Əliyevin iştirakı ilə keçirilib. Konfransda ulu öndər çıxış edərək mövcud tarixi şəraitdən, ictimai-siyasi vəziyyətdən, yeni yaradılan rayon təşkilatı qarşısında duran vəzifələrdən danışıb.

Diqqətə çatdırılıb ki, 2017-ci ildə rayon üzrə partiya sıralarına 111 nəfər qəbul olunub ki, onlardan 85-i gəncdir. Hazırda rayon üzrə 55 ərazi ilk partiya təşkilatı öz atrafında 6748 nəfər partiya üzvünü birləşdirir. Onlardan 2822 nəfəri qadınlar, 2292 nəfəri isə gənclərdir. Babək qəsəbəsi və kəndlərdə yerləşən ərazi ilk partiya təşkilatları hər cür şəraitlə təmin olunmuş müasir inzibati binalarda fəaliyyət göstərirlər.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov partiya üzvlərini yubiley münasibətilə təbrik edərək deyib ki, bu gün Azərbaycanın sosial-iqtisadi inkişafının davamlı xarakter daşıması, dövlətçiliyin və müstəqilliyin qorunması Yeni Azərbaycan Partiyasının platformasının təməl prinsipidir. Ötən dövr ərzində ümummilli liderimizin müəyyən etdiyi prinsiplərə əsaslanmaqla hər bir partiya üzvü muxtar respublikamızda aparılan dövlətçilik və quruculuq işlərində yaxından iştirak edib.

İcra başçısı bildirib ki, Yeni Azərbaycan Partiyasının uğurları ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Babək rayonunu da əhatə edib. Naxçıvan Muxtar Respublikasının Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə hər il rayonun qəsəbə və kəndlərində kompleks quruculuq işləri aparılır, məktəb binaları tikilir, yaşayış məntəqələri abadlaşdırılır, körpülər, yollar salınır, yeni iş yerləri açılır. Təkcə 2017-ci ildə rayonda İcra Hakimiyyətinin inzibati binasında yenidənqurma işləri aparılıb, Ali Məclis Sədrinin iştirakı ilə Nehrəm kəndində Heydər Parkı və üzümçülük təsərrüfatı istifadəyə verilib. Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinin Xətai məhəlləsinə birləşdirən yol, eləcə də su-kanalizasiya sistemləri yenidən qurulub. Bundan başqa, rayonun ucqar dağ kəndlərindən olan Payızda və Gərməçataqda kompleks quruculuq tədbirləri reallaşdırılıb, əhalinin rahatlığı təmin edilib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxışında bildirib ki, 25 illik tarixə və böyük siyasi nüfuza malik Yeni Azərbaycan Partiyasının əsasının ulu öndər tərəfindən doğma diyarımızda qoyulması hər birimiz üçün qürurvericidir. Qeyd olunub ki, bu gün Babək rayonunda da partiya sıraları gəncləşir, üzvlər Heydər Əliyev ideyalarının gerçəkləşməsində yaxından iştirak edirlər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Turan Məmmədli, təşkilatın Gənclər Birliyinin sədri Elnur Abbasov və Nehrəm kənd ərazi ilk partiya təşkilatının sədri Tofiq Abutalıbov çıxış ediblər.

Sonra partiya üzvlüyünə yeni daxil olmuş bir qrup gəncə üzvlük vəsiqələri, partiya fəallarına hədiyyələr təqdim olunub. Şagirdlər ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

## Gənclər Günü ilə bağlı tədbirlər keçirilib

***Naxçıvan Dövlət Universitetində Heydər Əliyev lektoriyasının 2 fevral – Gənclər Gününə həsr olunmuş “Heydər Əliyev və gənclər siyasəti” mövzusunda növbəti məşğələsi keçirilib.***



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri açaraq dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasətinin bu gün uğurla davam etdirildiyini və keyfiyyətcə yeni mərhələyə yüksəldiyini deyib. Çıxışda ümummilli liderin ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə gənclərlə bağlı həyata keçirilən islahatlardan, gənclərin ölkə həyatının bütün sahələrində fəal iştirakının təmin edilməsi məqsədilə görülən işlərdən danışılıb.

Universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid “Ulu öndər Heydər Əliyev və gənclər siyasəti” mövzusunda məruzə edib. Məruzədə 1994-cü ildə dövlət gənclər siyasətinin həyata keçirmək məqsədilə Gənclər və İdman Nazirliyinin yaradılmasından, 1996-cı il fevralın 2-də ulu öndər Heydər Əliyevin iştirakı ilə Ümumrespublika Gənclərinin I Forumunun keçirilməsindən, gənclər siyasəti ilə bağlı ümummilli lider tərəfindən imzalanmış fərman və sərəncamların mahiyyətindən danışılıb.

Qeyd olunub ki, dövlət gənclər siyasəti ölkəmizin bütün bölgələrində, eləcə də Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir, gənclərin hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülür, elm və təhsil ocaqları, gənclər evləri, idman kompleksləri tikilib istifadəyə verilir. Gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülməkdədir.

* * *



Şərur şəhərindəki “Bahar” kinoteatrında bu münasibətlə keçirilən tədbirdə Şərur Rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov çıxış edərək ulu öndərimiz Heydər Əliyevin gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğıdan, müasir Azərbaycanın inkişafında gənclərin mühüm rolundan danışıb. Qeyd edib ki, Azərbaycan gəncliyi ulu öndərin tövsiyələrinə uyğun olaraq ictimai həyatın bütün sahələrində fəal iştirak edirlər. Bugünkü gənclik müstəqil dövlətimizin daha da güclənməsi naminə əzmlə çalışır.

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Gənclər Birliyinin üzvü Cahandur Məhərrəmov məruzəsində vurğulayıb ki, ümummilli liderimizin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsi, təhsilin və idmanın inkişafı məsələləri dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib.

Tədbirdə rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşı Yasəmən Əliyeva, Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbinin müəllimi Murad Əliyev, Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Hüseyn Talıbov çıxış edərək vurğulayıblar ki, muxtar respublikamızda gənclərin bilik və bacarıqlarının artırılması, cəmiyyətdə layiqli yer tutması üçün onlara hər cür şərait yaradılıb. Bu gün cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gənclərin iştirakının təmin olunması diqqət mərkəzindədir. Muxtar respublikada gənc nəslin milli adət-ənənələrə, milli dəyərlərə bağlılıq ruhunda formalaşması üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Gələcəyimiz olan gənclərin təhsilinin, məşğulluğunun təmin edilməsi, ehtiyaclarının dolğun ödənilməsi məsələsi də bu gün dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Sonda zərərli vərdişlərlə mübarizə mövzusunda çəkilmiş “Mayak” bədii filmi nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

## Yeni nəsil avtomat telefon stansiyaları qurulub

*Muxtar respublikamızda yeni nəsil avtomat telefon stansiyalarının qurulub istifadəyə verilməsi davam etdirilir.*

Ötən il Naxçıvan şəhərinin Zərifə Əliyeva küçəsində 720, Şərur rayonunun Arpaçay və Çəmənli kəndlərinin hər birində 384, Qarahəsənli kəndində 512, Babək rayonunun Payız kəndində 384, Gərməçataq kəndində 64, Ordubad rayonunun Üstüpü kəndində 384 nömrəlik yeni nəsil avtomat telefon stansiyası istifadəyə verilib. Naxçıvan şəhərinin Tumbul kəndində 448, Qaraxanbəyli kəndində 640, Şərur rayonunun Ələkli kəndində 512 nömrəlik mövcud avtomat telefon stansiyalarının yeni istifadəyə verilən kənd mərkəzlərinə köçürülməsi və xətt təsərrüfatının yenidən qurulması təmin edilib.

Şahbuz rayonunun Türkeş və Şada kəndlərinin hər birində 160 nömrə tutumlu kareltipli yeni avtomat telefon stansiyaları quraşdırılaraq əhalinin istifadəsinə verilib.

2017-ci ilin may ayında Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə Çin Xalq Respublikasının “Huawei” şirkəti arasında Ordubad rayonu ərazisində yeni nəsil telefon stansiyalarının qurulması ilə bağlı imzalanmış müqaviləyə əsasən rayon ərazisindəki mövcud 29 ədəd Daewoo və kareltipli avtomat telefon stansiyaları dəyişdirilərək yeni nəsil avtomat telefon stansiyaları ilə əvəz olunub. Bundan əlavə, əvvəllər avtomat telefon stansiyası olmayan Azadkənd, Vələver, Kələki, Qoşadizə, Xanağa kəndlərində və Ordubad şəhərinin Nəcəfqulu Rəfiyev küçəsində, ümumilikdə, 34 yeni nəsil avtomat telefon stansiyası montaj olunaraq istifadəyə hazırlanıb. Yeni nəsil telekommunikasiya sisteminin qurulması ilə bağlı Dəstə Radio Televiziya Verici Stansiyasının binasında yerləşən qovşaqdakı optik multipleksorlar daha müasir yeni SDH avadanlığı ilə əvəz olunub. Ordubad rayonunda NGN şəbəkəsi və avadanlıqların quraşdırılması, yeni prefikslərin ayrılması ilə əlaqədar avadanlıqların muxtar respublikanın telekommunikasiya sisteminə inteqrasiyası işləri icra edilib.

Yeni ATS-lərin qurulması və mövcud stansiyaların nömrə tutumlarının artırılması nəticəsində ötən il ərzində 2562 ədəd yeni telefon nömrəsi istismara verilib. Yeni ATS qurulan ərazilərin kabelləşdirilməsi, kabel təsərrüfatının normativə uyğunlaşdırılması və cari təmir işlərinin icrası üçün, ümumilikdə, 2017-ci ildə 193 min 836 metr rabitə kabellərinin və 70 min 155 metr fiber-optik kabel xətlərinin tikintisi həyata keçirilib.

# Sürətli inkişafın başlıca səbəbi düzgün müəyyənləşdirilmiş siyasətin uğurla həyata keçirilməsidir

***Daha bir il də tarixə döndü. Zaman baxımından çox da böyük müddət olmayan ilin necə gəlib keçdiyinin fərqinə vara bilməsək də, diyarımızın salnaməsinə həkk olunan saysız-hesabsız genişmiqyaslı quruculuq ərməğanları, unuda bilməyəcəyimiz xoş xatirələr bizimlə qalıb.***

2018-ci ildə ötən ili məhz böyük uğurları, həyatımıza gətirdiyi yenilikləri ilə xatırlamağa tam haqqımız var. Çünki yola saldığımız il hər birimizin həyatına ayrı-ayrı izlər salıb. Hər il olduğu kimi, ötən il də muxtar respublikada infrastrukturun yenidən qurulması, səhiyyə və təhsil müəssisələri üçün yeni binaların tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilib, hər bir sahədə nailiyyətlər əldə edilib. İqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı, investisiya mü-



hitinin daha da yaxşılaşdırılmasının müsbət nəticələri 2017-ci ildə bir qədər də artıb. Qeyd etmək yerinə düşər ki, regionda sistemli və davamlı xarakter alan quruculuq tədbirləri muxtar respublikamızın sosial-iqtisadi inkişafının sürətləndirilməsində müstəsna əhəmiyyət kəsb edib. Bu da, son nəticədə, insanların rahat, firavan yaşamasına səbəb olub.

Bunun səbəbini geniş izah etməyə bir o qədər də ehtiyac yoxdur. Çünki xalqımızın minilliklər boyu yaratdığı dəyərləri yaşatmaq, gələcək nəsillərə olduğu kimi miras qoymaq üçün 2017-ci ildə də möhtəşəm tədbirlər reallaşdırıldı. Bununla yanaşı, neçə illərdir ki, muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilən tikinti-quruculuq işləri öz axarı ilə davam etdirildi. Belə tədbirlər diyarımızın tarixinə bir sıra yeniliklər yazdı. Bu yeniliklərə blokada şəraitində necə nail olmağı təsəvvür etmək çətin deyil. Ancaq muxtar respublika sakinləri ötən il bir daha gördülər və yəqin etdilər ki, bu qədim diyarda insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı və diqqət günümüzün reallığına çevrilib. Bu reallığı hər addımda, ilin ilk günündən sonuncu gününə qədər gördük. Qurub-yaratmaq istəyimizi gücləndirən başlıca amil də məhz bu reallığı yaşamağımızdır. Kimlərəsə bu, təəccüblü görünə bilər. Əslində isə bu, bir həqiqətdir. Muxtar respublikaya ölkəmizin digər bölgələrindən, xarici ölkələrdən gələn qonaqlar qədim diyarın belə intibaha qovuşmasına inana bilmirlər. Bunun təməlində isə ulu keçmişə ehtiram, sabaha cavabdehlik hissləri, düzgün seçilib müəyyənləşdirilmiş yol dayanır. Vətənini, xalqını sevən, ona ürəkdən bağlı olan hər bir kəs, təbii ki, əldə edilən bu uğurlardan fərəhlənməyə, qürur hissi keçirməyə bilməz.

Onu da deməliyik ki, bu gün muxtar respublikamız sürətli inkişaf yolunda olan Azərbaycanın regionları arasında ön sırada dayanır. Buna nail olmaq üçün qədim diyarda başlıca amil olan sabitlik təmin edilib. Sabitlik, yurd yerinə bağlılıq, dünənə ehtiram, sabaha cavabdehlik hisslərinin başlıca amil olduğu bu məkanda istənilən nəticəyə nail olmaq mümkündür. Bunu 2017-ci il dekabr ayının 30-da keçirilmiş beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasının materialları da bir daha təsdiqləyir. Sessiyada Ali Məclis Sədrinin dərin elmi təhlilə əsaslanan məruzəsinə nəzər saldıqda görürük ki, muxtar respublikamız 2017-ci ili də yüksək göstəricilərlə başa vurub. Belə göstəricilər 21 il əvvəl başlanan yeni inkişaf yolunun davamı, dahi Heydər Əliyev siyasi kursunun əməli bəhrələridir. Bu bəhrələri həyatımızın bütün sahələrində görür və fəxr edirik ki, dünya dəyərlərinə uyğun şəkildə müasirləşən, Qərb və Şərqin sivil həyat tərzini özündə ehtiva edən, beynəlxalq simpozium və görüşlərin ev sahibinə çevrilən Naxçıvan artıq qibtəolunacaq bir diyara çevrilib. Qazanılan uğurların daha çox olması da təbiidir. Çünki muxtar respublikamızda gedilən yol ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yoldan kənarda heç bir qələbədən danışmaq olmaz. Ali Məclis Sədrinin sessiyadakı məruzəsində dediyi kimi: ***"Əvvəlki dövrlərdə olduğu kimi, başa çatmaqda olan 2017-ci ildə də muxtar respublikanın sosial-iqtisadi həyatında inkişaf təmin olunmuş, sosial infrastruktur və əhalinin həyat səviyyəsi daha da yaxşılaşdırılmışdır. Tərəqqi və inkişafın davamlı xarakter alması ümummilli lider Heydər Əliyevin siyasi xəttinə sadiqliyin və ölkə Prezidentinin blokada şəraitində yaşayan muxtar respublikaya göstərdiyi diqqət və qayğının nəticəsidir".***

Qısa statistikaya müraciət edək: 2017-ci ildə bütün maliyyə mənbələri hesabına kapital qoyuluşlarının həcmi artaraq 916 milyon 390 min manat təşkil edib, bütün sahələrdə inkişaf təmin olunub, makroiqtisadi göstəricilər daha da artıb. Belə ki, 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci il ərzində ümumi daxili məhsulun həcmi 1,6 faiz artaraq 2 milyard 357 milyon manatdan çox olub. Onun bir nəfərə düşən həcmi 5 min 228 manat təşkil edib. Bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 3,7 faiz çoxdur. Ümumi daxili məhsul istehsalının 57 faizdən çoxu real sektorun payına düşüb. Bu isə davamlı və tarazlı inkişafın əsas göstəricisidir.

Hər il olduğu kimi, 2017-ci ildə də sahibkarlıq fəaliyyəti dəstəklənərək əlverişli biznes mühitinin yaradılması sahəsində tədbirlər davam etdirilib. Bu isə muxtar respublikanın istehsal potensialının daha da güclənməsinə gətirib çıxarıb.

O da vurğulanmalıdır ki, düzgün kreditləşmə siyasəti olmadan sahibkarlıqda dayanıqlı fəaliyyəti təmin etmək mümkün deyil. Hazırda muxtar respublikada kreditlər üzrə tətbiq edilən faiz dərəcələrinin ən aşağı səviyyədə olması muxtar respublikanın kredit bazarında canlanma yaradıb. Kreditlərin verilməsi ötən il də davam etdirilərək sahibkarlara 8 milyon 664 min manatdan çox kreditlər verilib, 60 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, daha 36 hüquqi və 2015 fiziki şəxs dövlət qeydiyyatına alınıb. Yaradılmış belə əlverişli şəraitin nəticəsidir ki, bu gün muxtar respublikada 368 növdə məhsul istehsal olunur, 344 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.



Sahibkarlığın inkişafı, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi hesabına məşğulluq səviyyəsi artıb, yeni iş yerləri açılıb. Bəhs olunan dövrdə muxtar respublika üzrə 1919 yeni iş yeri yaradılıb ki, bunun da 98 faizi daimi iş yerləridir.

Muxtar respublika sakinlərinin ərzaq təhlükəsizliyinin təmin edilməsində aqrar sektorun üzərinə mühüm vəzifələr düşür. Ona görə də əvvəlki illərdə olduğu kimi, ötən il də aqrar sahədə çalışanlar hərtərəfli dövlət qayğısı gördülər. Kənd yaşayış məntəqələrində şəhər rahatlığının təmin edilməsi, məhsul istehsalçılarına maliyyə dəstəyinin gücləndirilməsi, texnika və gübrə ilə təminatın yaxşılaşdırılması, suvarma sistemlərinin yenilənməsi, hazır məhsulun satışı və saxlanılması üçün əlverişli şəraitin yaradılması kənd təsərrüfatı məhsullarının istehsal həcmini xeyli dərəcədə artırdı. Bəhs edilən ilin məhsulu üçün əkin aparılmış 61 min 531 hektar sahədən bol kənd təsərrüfatı məhsulları götürüldü.

Ənənəvi təsərrüfatçılıq sahələri olan meyvəçilik və tərəvəzçilikdə də qazanılan uğurlar diqqətçəkicidir. Meyvə və tərəvəzçiliyin inkişafını nəzərdə tutan iki dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası bu sahəyə olan marağı daha da artırıb, unudulmuş bəzi yerli sortların bərpasına, yeni sortların əldə edilməsinə səbəb olub. 2017-ci ildə 6 min 170 hektar sahədə tərəvəz, 2 min 772 hektar sahədə bostan əkinləri həyata keçirilib, yeni meyvə bağlarının salınması davam etdirilib. Üzümçülüyün inkişafını təmin etmək məqsədilə yeni üzüm bağlarının salınması və üzüm tinglərinin becərilməsi diqqətdə saxlanılıb.

Ərzaq təminatında xüsusi çəkiyə malik olan heyvandarlığın inkişafına qayğı da unudulmayıb, bu sahəyə dəstək məqsədilə fermerlərə 1 milyon 488 min manat həcmində kredit verilib, 11 yeni heyvandarlıq təsərrüfatı, əhalinin müxtəlif növ quş əti və yumurta məhsullarına olan tələbatının ödənilməsi məqsədilə 7 yeni quşçuluq təsərrüfatı yaradılıb. Kənd təsərrüfatının inkişafında arıçılığın da mühüm əhəmiyyəti nəzərə alınaraq 2016-cı il noyabrın 18-də qəbul olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" iqtisadi cəhətdən gəlirli, qida və müalicəvi baxımdan faydalı olan arıçılığın inkişafı üçün geniş imkanlar açıb. Arıçılara 37 min manat həcmində kreditlər verilib, 3 arıçılıq təsərrüfatı və mum vərəqi istehsalı sahəsi fəaliyyətə başlayıb.

Bütövlükdə, ötən il muxtar respublikada 388 milyon 627 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da əvvəlki illə müqayisədə 4 faiz çoxdur.

Məlumat üçün bildirək ki, xarici ölkələrin diplomatik nümayəndəlik və mütəxəssislərinin də rəylərini əks olunduğu "Caspian European Club"un nəşrləri dünyanın 70 ölkəsinin dövlət və hökumət başçılarına, dövlət və transmilli şirkətlərin, beynəlxalq maliyyə institutlarının, aparıcı analitik mərkəzlərin, investisiya şirkətlərinin və reytinq agentliklərinin rəhbərlərinə təqdim olunur və geniş beynəlxalq oxucu auditoriyasının diqqətinə çatdırılır. Bu nüfuzlu təşkilatın 18 parametr və 6 qrup üzrə hazırladığı təhlillər muxtar respublikamızda iqtisadi inkişafın artan dinamika ilə getdiyini bir daha təsdiq etdi. Təbii ki, bu inkişafdan bəhrələnən muxtar respublika sakinləridir.

Bir məsələni də oxucuların diqqətinə çatdıraq: 2017-ci il həyatımızda elə uğurlu illərdən biridir ki, kiçik bir yazıda bu uğurlardan bəhs etmək qeyri-mümkündür. Yəni həyatın bütün sahələrinə eyni dərəcədə göstərilən qayğı öz bəhrələrini verib. Gülzarlıqlar, yaşıllıqlar, gözəlliklər diyarına çevrilən muxtar respublikada bərqərar olunmuş ictimai-siyasi sabitlik insanların həyata baxışlarını kökündən dəyişdirib. İnsanlar sosial-iqtisadi inkişafda başlıca amillər olan tikinti-quruculuq prosesləri, aqrar sahədə aparılan islahatların nəticələri, daxili bazarda yerli istehsalın xüsusi çəkisinin artırılması, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, həyatımızın bütün sahələrində – təhsil, mədəniyyət, səhiyyə, rabitə, nəqliyyat və digər sahələrdə qazanılan uğurları yüksək dəyərləndirirlər. İnsanların bu proseslərdə fəallığını isə yurdumuzu daha gözəl, daha füsunkar, iqtisadiyyatını güclənən bir diyar görmək istəyinin ifadəsi kimi qiymətləndirmək olar. Bu, doğma Vətənə, onun daha işıqlı sabahına bağlılığın, yurdsevərliyin ən gözəl təcəssümüdür. Bütün bunları düşünərkən yadıma ümummilli liderimizin sözləri düşür: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".***

Bu gün ulu öndərin planlarının, arzularının yerinə yetirildiyini bu qədim torpağın istənilən ünvanında görmək olar. Bu isə inkişafın möcüzə təsiri bağışlayan ifadəsi, günün reallığıdır.

2018-ci ilin ilk ayını başa vurmaqdayıq. Necə qarşıladıq növbəti ili? Dükan-bazarlarımızda bolluq, çöhrələrdə təbəssüm, qəlblərimizdə sevinc, diləklərimizdə yurdumuzda belə günlərin əbədi olması istəyi ilə. Bu əbədiliyə bütün varlığımızla inanırıq. Çünki min illərdir, hər açılan sabah həyatın davamı olub. Bu həyat, bu yaşam möhkəm özüllər üzərində qurulubsa, onun gələcəyi gözlənildiyindən də yaxşı olacaq. Bu mənada, 2017-ci ilin uğurları 2018-ci ilin daha yüksəliş ili olacağına möhkəm inam yaradıb.

***Ulu öndərin ideyalarının dönmədən həyata keçirildiyi, arzularının anbaan gerçəkləşdiyi muxtar respublikamız ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilən 2018-ci ilə uğurla qədəm qoyub. Bu gün qədim diyarda nail olduqlarımızın təməlində məhz bu amil dayanır: ulu öndərin müəyyənləşdirdiyi siyasətə, xalqımızın böyük oğlunun bizə irs qoyduğu yola sədaqət və ehtiram. Təməli tarixi nailiyyətlərlə qoyulan bu ildə də ümummilli liderimiz Heydər Əliyevin ideyaları yolumuzu işıqlandıracaq. Bu yol əbədi yoldur.***

**✍ Muxtar MƏMMƏDOV**

## Ticarət obyektlərində əhaliyə nümunəvi xidmət göstərilir

Muxtar respublikamızda sosial-iqtisadi inkişaf tempinin yüksəlməsi, əhali gəlirlərinin çoxalması vergilər sahəsində də irəliləyişlərə gətirib çıxarıb. Aparılan islahatlar, görülən tədbirlər nəticəsində vergi ödəyənlər bu sahəyə daha çox diqqət yetirirlər. Əsas vergi isə sahibkarlıq subyektlərinin, eləcə də iri şirkətlərin payına düşür. Mağazalarda, ictimai iaşə obyektlərində və digər müəssisələrdə bu məqsədlə nəzarət-kassa aparatları quraşdırılıb və istifadəsi təmin edilib. Ümumilikdə, 896 obyektdə 893 nəzarət-kassa aparatı quraşdırılıb, 3 obyektdə isə yaxın vaxtlarda quraşdırılması nəzərdə tutulur. Əvvəllər bu sahə ilə bağlı xeyli sayda nöqsanlar var idi. Ancaq son illərdə istər yüksək dövlət orqanları, istərsə də tabeli qurumlar tərəfindən bu halların aradan qaldırılması istiqamətində bir sıra işlər görülüb. Bu tədbirlərin nəticəsidir ki, hər bir vergi ödəyicisi öz üzərinə düşən məsuliyyəti yaxşı dərk edir.

Onu da qeyd edək ki, nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları tətbiq edilmədən, vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə olunmaqla əhali ilə pul hesablaşması qaydalarına əməl olunmaması, nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılmasına görə vergi ödəyicisinə müəyyən məbləğdə maliyyə sanksiyası tətbiq edilir.

Bəs alıcıların kassa çekini tələb etməsi nə üçün lazımdır? İlk olaraq ona görə ki, bəzi sahibkarlar hansısa cüzi maddi gəlir üçün vergidən yayınmağa cəhd göstərirlər. Belə olan halda onlara kim kömək edir? Təbii ki, alıcılar. Çünki bəzi müştərilər kassa çekini tələb etməyə lüzum görmür. Halbuki bu, əhalinin vergiyə bağlı təbəqəsinin sosial təminatı deməkdir.

Bəs bu gün bu sahədə vəziyyət necədir? Ticarət obyektlərində bu aparatlardan istifadə edilirmi? Elə bu suallara cavab tapmaq üçün şəhərimizdə fəaliyyət göstərən bir neçə ticarət obyektində olduq, müşahidələr apardıq. Görünən o idi ki, satıcılar istehlakçılara düzgün xidmət göstərir, alış-veriş zamanı nəzarət-kassa aparatlarını işə salır, alınan mallar müqabilində çeklər təqdim edilirdi. Düzdür, bəzi mağazalarda xırda problemlər də müşahidə olunurdu. Bu da, əsasən, nəzarət-kassa aparatlarında yaranan nasazlıqlarla bağlı idi. Alıcılardan Abbas Həsənov və Vaqif Quliyev söhbət zamanı bildirdilər ki, əvvəllər mağazalara üz tutarkən bəzi xoşagəlməz hallarla rastlaşırdıq. Bu məqamlardan biri də həmin obyektlərdəki nəzarət-kassa aparatları ilə bağlı olurdu. Düzdür, böyük ticarət mərkəzlərində bu sahədə hər zaman aktivlik olur, yəni müştərinin tələbindən asılı olmayaraq, çek təqdim edilir. Ancaq eyni sözləri xırda ticarət obyektləri haqqında demək olmazdı. Həmin ünvanlarda ya nəzarət-kassa aparatı olmur, ya da bəzi satıcılar bu aparatdan istifadə etməyə maraq göstərmirdilər. Sevindirici haldır ki, aidiyyəti təşkilatların səyi ilə bu hallar artıq aradan qaldırılıb.

Müşahidələrimiz zamanı gördük ki, ticarət obyektlərinin böyük əksəriyyətində nəzarət-kassa aparatları işlək vəziyyətdədir. Beləliklə, son nəticədə, belə qənaətə gəldik ki, vergidən yayınma halları elə biz vətəndaşların səhlənkarlığı nəticəsində baş verir. Ona görə hər bir vətəndaş bu problemin aradan qaldırılmasına xidmət etməlidir.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasında ötən ilin yekunları müzakirə edilib

***Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 2017-ci ilin nəticələri və 2018-ci ildə görüləcək işlərin müzakirəsinə həsr olunmuş yığıncağı keçirilib.***

Yığıncağı giriş sözü ilə açan federasiyanın sədri Fazil Ələkbərov bildirib ki, Azərbaycan gəncliyini sağlam, təhsilli və vətənpərvər görmək istəyən ulu öndərimiz Heydər Əliyev dövlət siyasətinin əsas qayəsini gənclər siyasəti olaraq müəyyənləşdirib. Bu gün muxtar respublikamızda idman və gənclər siyasəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla həyata keçirilir. Muxtar respublikada idmanın kütləviliyinə nail olunması, xüsusilə uşaq və gənclərin idmana cəlbi istiqamətində ardıcıl tədbirlər görülüb, müasir idman infrastrukturu yaradılıb, maddi-texniki bazanın gücləndirilməsi və idmanın hərtərəfli inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirilib. İdman və gənclər siyasətinə böyük diqqət ayıran Ali Məclisin Sədri deyib: ***"Gənclərin asudə vaxtının səmərəli təşkilində, onların sağlam böyüməsində və gələcəyə hazırlanmasında idmanın mühüm rolu vardır. Çünki cəmiyyətin sağlamlığı insanların, xüsusilə də gənclərin sağlamlığından asılıdır. Bu mənada hər bir gəncə olkənin gələcəyi kimi baxmaq lazımdır".*** İdman sahəsində həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsidir ki, bu gün muxtar respublikamız mötəbər turnirlərin, beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib, bir çox naxçıvanlı gənc bu turnirlərdə yüksək nəticələr əldə edib.



Fazil Ələkbərov qeyd edib ki, karate-do idman növünün inkişafı üçün muxtar respublikanın şəhər və rayonlarında lazımi şərait yaradılıb, federasiyanın tərkibində hazırda 12 məşqçinin rəhbərliyi altında 17 karate bölməsi fəaliyyət göstərir. Onlardan 4-ü Naxçıvan şəhərində, 4-ü Şərur, 2-si Babək, 2-si Ordubad, 2-si Sədərək, 1-i Culfa, 1-i Şahbuz, 1-i isə Kəngərli rayonlarındadır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisində idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri qızların idmana cəlb edilməsini, bu sahədə kütləviliyə nail olunmasını və onların iştirakı ilə bir sıra tədbirlərin keçirilməsini federasiya qarşısına əsas tapşırıq kimi qoyub. Bu istiqamətdə uğurlu nəticələr əldə edilib", – deyən federasiya sədri vurğulayıb ki, bu gün muxtar respublikada 500 uşaq, yeniyetmə və gənc karate idman növü ilə məşğul olur. Onlardan 60 nəfəri qızdır. Karate-do Federasiyası tərəfindən görülən işlər nəticəsində ötən il ərzində 10 nəfər qız idmançı respublika və beynəlxalq səviyyəli turnirlərdə iştirak edib, onlardan 6-sı fəxri kürsünün müxtəlif pillələrinə qalxıblar. 2017-ci ildə federasiyanın idmançıları 18-i yarışlarda, ümumilikdə, 52 medal qazanıblar. Onlardan 21-i qızıl, 13-ü gümüş, 18-i bürünc medal olub.

Federasiyanın sədr müavini Nəriman Quliyev çıxışında bildirib ki, hazırda muxtar respublikada federasiyanın 3 klubu fəaliyyət göstərir. Bunlar "Nəqşicahan" (qızlar), "Qapıçıq" və "Şərur" karate-do idman klublarıdır. Federasiyanın 50 idmançısı Azərbaycan Karate Federasiyası Assosiasiyasının təşkil etdiyi kəmər imtahanında iştirak edib. İdmançılarımızdan 31 nəfəri müxtəlif kyu dərəcələrinə, bir nəfər qız idmançımız isə birinci Dan qara kəmər ustalıq dərəcəsinə layiq görülüb.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov deyib ki, muxtar respublikamızda idman və idmançılara dövlət qayğısı ən yüksək səviyyədədir. Regionun bütün rayon və şəhərlərini əhatə edən müasir idman infrastrukturu fonunda gənc və yeniyetmələrin idmanın müxtəlif növlərinə marağı günü-gündən artmaqdadır.

Bildirilib ki, ötən il nazirlik və Karate-do Federasiyasının birgə fəaliyyəti kifayət qədər uğurlu alınıb. Federasiya idmançılarının ötənilki nəticələri, qazanılan beynəlxalq miqyaslı uğurlar idmanın bu növünün Naxçıvandakı inkişafının əsas göstəricisidir. Federasiyada kütləviliyin artırılması və istedadlı gənclərin üzə çıxarılması məqsədilə nazirliyin yerli idarələri və federasiyanın müvafiq bölmələri tərəfindən çoxsaylı idman yarışları təşkil olunub, qalib idmançıların daha yüksək səviyyəli idman yarışlarında iştirakı təmin edilib.

Çıxışlardan sonra 2017-ci ildə fərqlənən 5 idmançı federasiya sədri Fazil Ələkbərov tərəfindən mükafatlandırılıb.

İclasa yekun vuran Fazil Ələkbərov muxtar respublikada uşaq, yeniyetmə və gənclərin karate məşğələlərinə cəlb edilməsi sahəsində kütləviliyə nail olunması məqsədilə federasiya tərəfindən 2018-ci il üçün tədbirlər planı tərtib olunduğunu qeyd edib. Qarşıya qoyulan əsas məsələlər isə uşaq, yeniyetmə və gənclərin zərərli vərdişlərdən uzaq tutulması, onların asudə vaxtlarının səmərəli təşkili məqsədilə karate idman məşğələlərinə cəlb edilməsi, təbliğat işlərinin genişləndirilməsi, rayon və kəndlərdə əlavə karate bölmələrinin yaradılması, karate idman növü ilə məşğul olan yeniyetmə və gənclərin, xüsusən də qızların məşqlərdə iştirakının davamlılığına nail olunması, yığma komandanın tərkibini müəyyən edərək ölkədaxili və beynəlxalq turnirlərdə iştirakının təmin edilməsidir.

Vurğulanıb ki, muxtar respublikada idmanın inkişafının sağlam gəncliyin formalaşmasında vacib rolunu əsas tutaraq Karate-do Federasiyası bundan sonra da qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində əzmlə çalışacaq, istedadlı idmançıların yetişdirilməsində səy və bacarığını əsirgəməyəcəkdir.

**Ceyhun MƏMMƏDOV**

## 2017-ci ildə muxtar respublikadakı muzeyləri 445 min tamaşaçı ziyarət edib

***2017-ci ildə muxtar respublikada milli dəyərlərimizin yaşadılması, qorunması və təbliği sahəsində bir sıra işlər həyata keçirilmiş, əlamətdar və tarixi günlərlə bağlı tədbirlər davam etdirilmiş, görkəmli sənət adamlarının yubileyləri qeyd edilmişdir. İl ərzində keçirilən "İstedadlı uşaqlar-2017", "Göyçə", "Kətə", "Arıçılıq məhsulları-bal" və "Ailə təsərrüfatı məhsulları" festivalları muxtar respublika sakinləri və turistlərdə xoş təəssürat yaratmışdır.***

Ötən il qədim diyarımızda muzeylərin fəaliyyətlərinin günün tələbləri səviyyəsində qurulması və muzey şəbəkələrinin genişləndirilməsi sahəsində işlər davam etdirilmişdir. Bu məqsədlə Şahtaxtinskilər muzeyi yenidən qurulmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" Sərəncamının icrası ilə bağlı hazırlıq işlərinə başlanılmışdır. Bu dövrdə muzeyləri 110 min 425-i əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 445 min 747 tamaşaçı ziyarət etmişdir. Muzey fondlarının zənginləşdirilməsi sahəsində qədim diyarın sakinləri fəal iştirak etmiş, muzeylərimizə 1340 eksponat daxil olmuşdur.

Muxtar respublikanın kitabxanalarında əhaliyə mədəni xidmət işinin günün tələbləri səviyyəsində qurulması diqqətdə saxlanılmış, mədəni-kütləvi tədbirlərin və sərgilərin keçirilməsi üçün bir sıra işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamının icrası ilə bağlı kitabxanalarda müvafiq kitab guşələri yaradılmış, 31 kitab müzakirəsi keçirilmişdir. 2017-ci ildə muxtar respublikanın kitabxanalarına, ümumilikdə, 301 adda 13 min 224 nüsxə çap məhsulu daxil olmuşdur. Kitabxanalarda keçirilən mədəni-kütləvi tədbirlərin sayı 552, sərgilərin sayı 441 olmuşdur. "Kitabxana işinin təşkili və müasir tələblər mövzusunda" kurslar keçirilmiş və 96 kitabxana əməkdaşına sertifikatlar təqdim edilmişdir.

Yola saldığımız ildə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini 616 şagird bitirmişdir. 2016-2017-ci tədris ilində müxtəlif ixtisaslar üzrə musiqi məktəblərinə 990 şagird qəbul olmuşdur. Onlardan 15-i sağlamlıq imkanları məhdud uşaqlardır. Musiqi məktəblərində hesabat konsertləri, ustad dərsləri, metodik kurslar, intellektual oyunlar, rəsm və musiqi müsabiqələri keçirilmişdir.

2017-ci ilin sonlarında yekunlaşan "Rəqs kollektivlərinin ifaçılıq müsabiqəsi" də maraqla qarşılanmışdır. Müsabiqənin 22 iştirakçısından 11-i əsas tura vəsiqə almışdır. Qaliblər və fərqlənənlər Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplom və fəxri fərmanları ilə təltif edilmişlər. Naxçıvan Dövlət Filarmoniyasının Kamera və Xalq Çalğı Alətləri, Estrada orkestrlərinin muxtar respublikanın paytaxtında və rayonlardakı konsertləri də maraqla qarşılanmışdır. Bu dövrdə Naxçıvan Dövlət Uşaq Filarmoniyasının fəaliyyəti canlandırılmış, filarmoniyanın musiqi kollektivlərinə 17 istedadlı uşaq cəlb edilmişdir.

Teatr kollektivlərinin hazırladıqları yeni tamaşalar muxtar respublika sakinlərinin asudə vaxtlarının səmərəli təşkilində mühüm əhəmiyyətə malik olmuşdur. Naxçıvan Dövlət Musiqili Dram Teatrında Ə.Əmirlinin "Onun iki qardaşı", M.Metterlinqin "Göy quş", H.Cavidin "İblis" tamaşaları səhnəyə qoyulmuşdur. Naxçıvan Dövlət Kukla Teatrı isə "Niyyət açarı", "Göyçək Fatma", "Keçinin qisası" tamaşaları ilə balacaların görüşünə gəlmişdir. Naxçıvan Dövlət Uşaq Teatrı "Balaca şahzadə", "Bizə Şaxta baba və dovşan lazımdır", "Özgəsinə quyu qazan" tamaşalarını hazırlamışdır.

Naxçıvan Dövlət Film Fondu da muxtar respublika əhalisinin asudə vaxtının mənalı və səmərəli keçirilməsində fəal iştirak etmiş, "Azərbaycan Kinosu Günü" layihəsi çərçivəsində muxtar respublikanın rayonlarında 14 film nümayiş etdirilmişdir.

Naxçıvan Kulinariya Mərkəzi milli mətbəximizin öyrənilməsi və təbliğ edilməsi istiqamətində işini davam etdirmişdir. Mərkəz Naxçıvan diyarının kulinariya mədəniyyətinə aid nümunələrin toplanmasında fəal iştirak edir. Ötən il 58 mətbəx nümunəsi və milli mətbəxlə bağlı 25 folklor nümunəsi toplanmışdır.

Turizmin inkişafı sahəsində də ardıcıl tədbirlər görülmüş, təbliğat işi gücləndirilmişdir. Həyata keçirilən tədbirlər muxtar respublikaya gələn turistlərin sayının artmasına səbəb olmuşdur. Belə ki, 2017-ci ildə muxtar respublikaya ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən 413 mindən çox turist gəlmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclası keçirilib

AMEA Naxçıvan Bölməsində Rəyasət Heyətinin növbəti iclası keçirilib.

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev Prezident İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" imzaladığı sərəncamların əhəmiyyətindən danışıb. Akademik Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar bölmədə elmi konfrans və tədbirlərin keçiriləcəyini, bu mövzuda interaktiv açıq dərsin təşkil olunacağını diqqətə çatdırıb.

Daha sonra akademik İsmayıl Hacıyev qeyd edib ki, "Caspian European Club"un 2017-ci il üçün ölkənin iqtisadi regionları üzrə 18 parametr üzrə hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq ilk yeri tutması muxtar respublikada aparılan davamlı sosial-iqtisadi inkişafın məntiqi nəticəsidir.

İclasda bölmənin Bioresurslar İnstitutunun əməkdaşı, biologiya üzrə fəlsəfə doktoru, dosent Fatmaxanım Nəbiyevanın "Naxçıvan Muxtar Respublikası florasının yeni taksonları və onların əhəmiyyəti" mövzusunda elmi məruzəsi dinlənilib. Naxçıvanın ekoloji mühitinin, bitki örtüyünün zəngin olduğunu söyləyən məruzəçi bildirib ki, muxtar respublikada 30 faydalı bitki qrupu – yem, qida, dərman, kosmetik, efir yağlı, aşı maddəli, flavanoidli, vitaminli və digərləri mövcuddur.

Məlumat verilib ki, təbii yem sahələri olan yay və qış, kəndətrafı otlaq sahələrində 1700-ə yaxın yem bitkiləri inkişaf edir. Onların qorunması, introduksiyası və reintroduksiyası üsulları ilə artırılması və bərpası elmi əsaslarla həyata keçirilir.

Tədbirdə bir sıra elmi-təşkilati və cari məsələlərə də baxılıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Uzunömürlü ailənin yubileyi qeyd olunub

Muxtar respublikamızda ailələrə yüksək dövlət qayğısı göstərilir. Ailə dəyərlərimizi möhkəmləndirmək məqsədilə ailə institutunun qorunub saxlanmasında nümunə olan ailələrdə yubiley tədbirlərinin qeyd olunması artıq ənənəyə çevrilib. Uzunömürlü ailələrdən biri də Culfa rayonunun Qazançı kəndində yaşayan Rəhimovlar ailəsidir. Bu il onların evliliklərinin 70 ili tamam olur. Ailənin 6 övladı, 22 nəvəsi və 29 nəticəsi var.

Rəhimovlar ailəsində evliliklərinin 70 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Səfərova çıxış edərək Rəhimovlar evliliklərinin 70 illiyi münasibətilə təbrik edib, onlara cansağlığı və firavan həyat arzulayıblar.



Vurğulanıb ki, bu gün muxtar respublikamızda yaşayan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Uzunömürlü ailələrin yubileylərinin geniş şəkildə qeyd edilməsi muxtar respublikada ailələrimizə göstərilən diqqət və qayğının ifadəsidir. Belə uzunömürlü ailələr cəmiyyətimizdə yeni qurulan gənc ailələr üçün örnəkdir.

Sonda ailəyə hədiyyə və gül buketi təqdim olunub.

Yubilyarlar və onların ailə üzvləri göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## "Naxçıvan" Universitetində doktorantura və dissertanturaya ilk qəbul imtahanı aparılıb

"Naxçıvan" Universitetində ilk dəfə olaraq doktorantura və dissertanturaya qəbul imtahanı aparılıb. İmtahan başlanmazdan əvvəl universitetin rektoru, professor İsmayıl Əliyev çıxış edərək keçirilən imtahanın əhəmiyyətindən danışıb, namizədlərə uğurlar arzulayıb. Bildirilib ki, Azərbaycan Respublikasında yüksəkixtisaslı elmi və elmi pedaqoji kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan doktorantura yolu ilə həyata keçirilir və müvafiq elmi dərəcələrin verilməsi ilə başa çatır.

Qeyd edək ki, imtahanda doktorantura və dissertantura üzrə verilmiş 7 yer üzrə 6 namizəd iştirak edib.

Onu da bildirək ki, imtahanın nəticələri komissiya üzvləri tərəfindən müəyyən edilib. Namizədlər imtahanı uğurla başa vurublar. İmtahanın gedişi ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev və tədris işləri üzrə prorektor Hüseyn Bağırsoylu tərəfindən izlənilib.

**Nuray ƏSGƏROVA**



Səliqə-sahman, təmizlik yaxşı əməldir, sağlamlıq və gözəllikdir. Ata-babalarımız "təmizlik imandan gəlir" kəlməsini nahaqdan deməyiblər. Son illərdə muxtar respublikamızın paytaxtında görülən işlər nəticəsində ətraf mühitin mühafizəsi, insanlarda ətraf mühitə qayğının formalaşdırılması istiqamətində mühüm işlər həyata keçirilib. İstər yağışlı bahar günlərində, istər küləyin yarpaqları sağa-sola sovurduğu payızda, istərsə də qarlı-çovğunlu qış fəslində paytaxt Naxçıvan şəhəri təmiz və səliqəli görünür.

# Bu gün Naxçıvan ölkəmizin ən təmiz şəhərləri sırasındadır

Qış ayları həm də şəhərin təmizliyinə cavabdeh olan qurumlar üçün sınaq dövrüdür. Ötən illərin müşahidələri belə deməyə əsas verir ki, bu sahəyə göstərilən diqqət və qayğı sayəsində əlaqədar qurumlar bu imtahandan üzüağ çıxmağı bacarırlar.

Şəhərimizdə səliqə-sahmanın yaradılmasında, fasiləsiz olaraq yaşayış massivlərinin ərazilərində məişət tullantılarının təmizlənməsində Naxçıvan Şəhər Sanitar-Təmizlik İdarəsi kollektivinin böyük əməyi vardır. İdarənin rəisi Hüseyn Həziyev bizimlə söhbətində dedi ki, Naxçıvan şəhərinin fasiləsiz təmizlənməsi üçün hərtərəfli imkanlar yaradılıb. Məişət tullantılarının vaxtlı-vaxtında toplanması və şəhərdən kənarlaşdırılması işində mühüm rol oynayan maşın və mexanizmlərlə təminat diqqət mərkəzində saxlanılıb, idarəyə müxtəlif markalı 35 tullantı daşıyan avtomaşın, 4 qarkürəyən, 3 qumsəpən, 10 süpürgə maşını, 1 "CAT" markalı ekskavator verilib. Bu texnikalar şəhərdə təmizlik işlərinin aparılmasını, məişət tullantılarının yığılmasını, daşınmasını yüksək səviyyədə həyata keçirməyə imkan verir.

Qış mövsümü ilə əlaqədar olaraq Sanitar-Təmizlik İdarəsində də xüsusi fəaliyyət planı hazırlanıb və həyata keçirilməsinə başlanılıb. Bundan öncə isə idarənin balansında olan maşın-mexanizmlərə texniki baxış keçirilib, onlar lazım olan ehtiyat hissələri ilə təmin olunub. Qumsəpən və qarkürəyən maşınlar hazır vəziyyətə gətirilib, sürücülərə isti geyim dəstləri verilib. Küçə və xiyabanların qar və buzdan təmizlənməsi üçün lazımi avadanlıqlar alınıb, Əliabad qəsəbəsinin yaxınlığında yerləşən Şorsu massivindən duzlu qum daşınaraq tədarük olunub.

Həmsöhbətim bildirdi ki, 187 nəfərin işlə təmin olunduğu idarənin kollektivi mənzil-istismar sahələrinə aid ərazilər daxil olmaqla, Naxçıvan şəhərinin bütün ünvanlarında 3 qrup üzrə günün müxtəlif vaxtlarında təmizlik işləri aparır. Digər 20 nəfərlik 2 qrup isə gün ərzində növbətçilik edir, abadlıq, tikinti-quruculuq tədbirləri ilə əlaqədar olaraq yaranan tullantıları dərhal şəhərdən kənarlaşdırır.

Təmizlik işləri təkcə şəhərin mərkəzi küçələri ilə məhdudlaşmır. Eyni zamanda ətraf məhəllələr və kəndlər də diqqətdə saxlanılır. Belə ki, şəhərin və ətraf kəndlərin müxtəlif ünvanlarında tullantıların ətrafa yayılmaması üçün nəzərdə tutulan yerlərdə xüsusi qutular qoyulub.

*Təəssüf ki, bəzi şəhər sakinləri hələ də muxtar respublika paytaxtının təmizliyinə soyuq münasibət göstərir, məişət tullantılarını hara gəldi atırlar. Gəlin qurub-yaradılanları qoruyaq, ümumi evimiz sayılan şəhərimizin daha gözəl görünməsi üçün əlimizdən gələni əsirgəməyək.*

✍ **Nail ƏSGƏROV**

---

*Xalq təqvimi*

# Kiçik çillənin böyük soyuğu

***Bölgəmizdə qış nə dərəcədə sərt keçsə də, xalqımız onun gəlişini bayram kimi qarşılayır, bununla bağlı müxtəlif adətlərə, inam və mərasimlərə əməl edir. Unutmayaq ki, ancaq qışın və yazın qarşılanması təntənə ilə keçirilir. Başqa sözlə desək, xalqımız qışı xoş qarşıladığı kimi onu təntənəli şəkildə də yola salır. Vaxtilə qış əyləncə, nağıl, aşıq məclisləri, qadınların toxuculuq işləri ilə də yadda qalardı. İnsanlar bütün yorğunluqlarını qış mövsümündə atardılar. Qış görüləcək işlərin az olması səbəbilə həm də bir istirahət və əyləncə mövsümü idi.***



Xalqımız qış dövrünü xalq təqviminə uyğun olaraq "çillə" adı ilə üç yerə bölmüşdür. Çillə "çehil" sözündəndir, mənası "qırx" deməkdir. Böyük çillə 40 gün (21 dekabr-30 yanvar), kiçik çillə 20 gün (31 yanvar-19 fevral), ala çillə və ya ala çolpav (boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) olur. El arasında bu üç çilləni üç bacı, daha çox böyük və kiçik çillələrlə bağlı olaraq böyük və kiçik bacı adlandırırlar. El-oba arasında bu iki bacı haqqında deyilmiş bir söyləmə vardır.

*Rəvayət.* Böyük çillə ömrünü başa vurub geri qayıdanda kiçik çillə ilə qarşılaşır. Kiçik çillə böyük çillədən soruşur: "Nə etdin?" Böyük çillə cavab verir: "Tayaları yarıladım, qovurma küpəsinin başını endirdim, qalaqları sökdürdüm". Kiçik çillə deyir: "Mən gedib unluqları, ot tayalarını yox edəcəyəm, qalaqları yandırıb göyə sovuracağam, gəlinlərin əlini xəmir təknəsində donduracağam". Böyük çillə deyir: "Heç nə edə bilməyəcəksən, çünki ömrün azdır, qabağın yazdır".

Xalq arasında iki çillənin bir-birini əvəz etməsi "təhvil-təslim dövrü" adlanır. Ordubad və Culfa bölgələrində əhali qışın ən qorxulu dövrünü "cahar-cahar" adlanan dövr hesab edir ki, bu da dörd gün böyük çillədən, dörd gün isə kiçik çillədən götürülür. Xalq meteorologiyasına görə, böyük çillənin son, kiçik çillənin isə ilk dörd günləri qışın ən sərt günləridir. Culfa bölgəsindən topladığımız etnoqrafik çöl materiallarına görə, bu bölgədə böyük çillə qurtarıb, yerini kiçik çilləyə verdiyi dövrdə ("cahar-cahar" adlanan dövr nəzərdə tutulur) "Çillə kəsdi" oyunu və ya şənliyi keçirilərmiş. Oyun zamanı qardan heyvan fiqurları düzəldib, onun ətrafına yığışar, şənlik edərdilər. Məqsəd qışdan qorxmamaq, qışa sinə gərməkdir.

Folklorşünas Bəhlul Abdullayev yazır ki, insanlar bir müsibət, bəla ilə üzləşdikdə ondan xilas olmaq, yaxa qurtarmaq üçün xüsusi ayin icra edərdilər ki, elə bu da "çillə kəsmək" adlanırdı. Kiçik çillə daha çox şaxtalı keçdiyinə görə bu müddətə "qışın oğlan çağı" da deyilir. Kiçik çillənin şaxtalı, boranlı olmasını "kiçik çillənin soyuğu, təndirə qatar toyuğu" və ya "kiçik qardaş xovlu olar" kimi el deyimlərində də görürük.

*Kiçik çillə vay çillə,*
*Qarlı dumanlı çillə,*
*Gəbə, kilim toxuduq,*
*Cəhrəmizdə var çillə.*

Deyilənə görə, kiçik çillə daxil olduğu kimi, çıxanda da havada bir dəyişiklik yaradır.

Kiçik çillənin adı ilə bağlı xalqımız bir söz də qoşubdur:

*Kiçik çillə*
*Boyu bir belə*
*Hikkəsi iri belə...*
*Gəlişi oldu hayınan*
*Gedişi oldu vayınan.*

Müxtəlif mənbələrə əsaslanaraq demək olar ki, Novruz bayramından əlli gün qabaq, böyük çillənin axırı odla əlaqəli olaraq Səddə bayramı keçirilirdi. Bunu Nizami Gəncəvinin "İsgəndərnamə" poemasında da görürük.

Etnoqrafik çöl materiallarına görə, xalq təqviminə uyğun olaraq böyük çillənin sonlarına "qurdun insana yerikləyən dövrü" də deyilmişdir. Bu da onunla əlaqəlidir ki, ilin bu dövründə qurd (canavar) ac qaldığı üçün insanlara da hücum edir.

Araşdırmalardan məlum olmuşdur ki, Ordubadda böyük çillə ilə kiçik çillənin arasındakı "təhvil-təslim dövrü"ndə və ya böyük çillə qurtarıb yerini kiçik çilləyə verən günü "Çoban bayramı" və ya "Saya gəzmə" adlı mərasim təşkil edərdilər. Mənbələrin verdiyi məlumata görə, bayramı keçirməkdə əsas məqsəd yer ruhlarını razı salıb, dölün bərəkətini artırmaq və heyvanları sağlam vəziyyətdə yaza çıxarmaq idi. Eyni zamanda bu tarix maldarlar üçün yeni bir ilin başlanğıcı kimi də qəbul edilirdi.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

---

# Voleybol Federasiyası ili uğurla başa vurub

***Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının 2017-ci ilin yekunları və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş yekun iclası keçirib.***



İclası giriş sözü ilə açan federasiyanın sədr müavini Aydın Mirzəyev bildirib ki, Azərbaycanda idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ölkə başçısı tərəfindən ulu öndərin siyasətinin uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Yaradılan müasir idman infrastrukturu respublikamızda beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsinə şərait yaradıb.

Diqqətə çatdırılıb ki, bu gün Naxçıvanda da gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə olimpiya-idman kompleksləri, idman mərkəzləri tikilib və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilib. Məhz bunun nəticəsidir ki, gənclərin bu sahəyə maraqları xeyli artıb. Bunu ötən il idmançılarımızın qazandıqları uğurlu nəticələr də sübut edir.

Federasiyanın sədr müavini vurğulayıb ki, ötən il keçirilən yarışlarla yanaşı, kişilər arasında Azərbaycan Yüksək Liqasının final mərhələsi muxtar respublikamızda təşkil olunub. Bu turnirdə komandamız III yerə layiq görülüb. Həmçinin ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan "Heydər Əliyev kuboku" da Naxçıvanda voleybol üzrə kütləviliyin təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Samir Oruclu qeyd edib ki, ötən il muxtar respublikamızda gənc və yeniyetmələrin kütləvi bədən tərbiyəsi və idman tədbirlərinə cəlb olunması istiqamətində nazirlik tərəfindən müxtəlif idman federasiyaları ilə mütəmadi təcrübə mübadiləsi aparılıb. Muxtar respublika idmançılarının respublika və beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin edilib. Komanda oyunları arasında ən geniş yayılmış idman növlərindən biri olan voleybolun inkişafı və idmanın bu sahəsi üzrə kütləviliyin təmin edilməsi nazirlik tərəfindən diqqət mərkəzində saxlanılıb və Voleybol Federasiyası ilə birgə çoxsaylı tədbirlər həyata keçirilib.

Nazirlik əməkdaşı onu da deyib ki, hazırda 2000-ci il təvəllüdlü yeniyetmə voleybolçularımızdan Uğur Qədimov və Mirhasil Seyidov Azərbaycanın yeniyetmələrdən ibarət voleybol üzrə yığma komandasına dəvət alıblar. Onlar təlim-məşq toplanışlarında iştirak edir, Avropada keçirilən yarışlarda təmsil olunurlar.

Sonda 2018-ci ildə qarşıda duran məsələlər müzakirə edilib.

✍ **C. MƏMMƏDOV**

---

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 16 fevral 2018-ci ildə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | "Badaşqan" restoranı və əmlakları | Babək rayonu, Badaşqan kəndi | 142 480.02 | 14 248.01 |

Hərracda iştirak etmək istəyən hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlak üçün Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinə müraciət edə bilərlər. Hərracda alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10% həcmində behi Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin AZ21NABZ12360100000000005944 nömrəli hesabına və hərracda iştiraka görə qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

Sifarişlər və aşağıdakı sənədlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk prospekti 42) 13 fevral 2018-ci il tarixdə hərrac keçirilməsinə ən azı 3 bank günü qalanadək qəbul olunacaqdır.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- *Maliyyə Nazirliyinin hesabına ödənilmiş 10% behin hesaba ödənilməsini təsdiq edən ödəmə sənədinin surəti.*

Hərrac 16 fevral 2018-ci il tarixdə saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

***İtmişdir***

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Səfərov Vaqif Hüseyn oğlunun adına olan JN-459A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 94